# Uşaqlarda təfəkkürün inkişafı

**Günəş Əli qızı Əfəndiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi psixologiya kafedrasının baş müəllimi*
**E-mail:** gunesh efendiyeva@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. Ç.Q. Verdiyeva

**Acar sözlər:** təfəkkür, uşaq, məktəbəqədər, təlim, istedad
**Ключевые слова:** мышление, ребенок, дошкольное образование, обучение, талант
**Key words:** thinking, child, preschool, training, talent

Təfəkkür həyat şəraitinin, təlim və tərbiyənin təsiri ilə inkişaf edir. Uşaq ikinci yaşın başlanğıcında ilk ümumiləşdirmədən istifadə edir. Lakin bu hələ nitqdə öz ifadəsini tapmayıb, ancaq hərəkətlərdə özünü göstərir. Məsələn, on üç aylıq uşaq stolun üstündəki konfeti götürmək üçün balaca kətildən istifadə edir, eyni vasitəyə başqa cisimləri götürmək istədikdə də əl atır. Bu, onun başqalarından mənimsədiyi əməli təfəkküründür. Çünki uşaq daim «ağıllı mühitdə» dolanır, yaşlı adamların cismə yanaşma tərzindən də istifadə edir.

Körpə uşaq təfəkkürünün səciyyəvi xüsusiyyətlərindən biri də odur ki, o, başlıca olaraq, hazırda qavradığı cisimlər, işlər haqqında düşünür. Əgər cisim müəyyən müddət onun nəzərindən yayındırılarsa və uşağın diqqəti başqa cismə yönələrsə, əvvəlki cisim yaddan çıxır, uşaq onun haqqında düşünmür. Başqa sözlə, cisimlə iş qurtaran kimi, o, daha fikir obyekti olmur.

Təhlil, tərkib, müqayisə və s. fikri əməliyyat bilavasitə cisimlə görülən əməli işdən ayrılmadığına görə uşaq cismi hissələrinə bilavasitə ayıra bilir və ya birləşdirir. Fikri təhlil və tərkib hələ nəzərə çarpmır. Buna görə də bir yaşından üç yaşına qədər olan uşaqların təfəkkürü əsasən əyani-əməli səciyyə daşıyır.

Kiçik uşaqlar öz fəaliyyətlərini planlaşdırmağa, onun nəticələrini qabaqcadan görməyə hələ qabil olmurlar.

Uşağın əməli məsələləri həll etməsi üçün yiyələndiyi hərəkətlər şərti reflekslərin yaranması qaydası ilə əmələ gəlir, müəyyən şəraitdə dəfələrlə təkrar edilərək möhkəmləndirilir.

Eyni tipli məsələlərin həllinə lazım olan ümumiləşmiş vasitələri, eləcə də işi, hərəkəti mənimsəmək sözlə ifadəsini tələb edir. Ancaq belə olduqda uşaq, qarşısına çıxan yeni məsələni müstəqil olaraq həll edə bilər. Çünki o, sözlərin köməyi ilə tanış əməliyyatı yeni şəraitdə tətbiq edir. Bu da ilk dövrlərdən başlayaraq təfəkkürün fəaliyyətinə ikinci siqnal sisteminin qoşulmasını təmin edir.

Təfəkkürün sonrakı inkişafı bir sıra şərtlərlə bağlıdır, yəni uşağın fiziki inkişafında, həyat təcrübəsinin zənginləşməsindən, əməli fəaliyyətə qoşulmasından, nitqə yiyələnməsindən və sair asılıdır.

Məktəbəqədər dövrdə uşağın təfəkkürü yeni keyfiyyət kəsb edir. Yaşlılarla ünsiyyət, cisimlərin sözlə ifadəsi uşaqların biliklərini genişləndirir və dərinləşdirir. Bunun sayəsində də uşağın təfəkkürü bilavasitə cisimlərdən uzaqlaşa bilir. Məfhumların məzmunu fikri surətlərlə zənginləşməyə başlayır.

Beləliklə məktəbəqədər yaşda uşaq əyani - əməli təfəkkürdən obrazlı təfəkkürə, sonra isə tədriclə mücərrəd təfəkkürə keçir.

Uşaqda obrazlı təfəkkürü inkişaf etdirmək üçün onun qarşısına müxtəlif fikri məsələlər qoymaq, bunları sözlərlə izah etmək və onların həllinə nail olmaq lazımdır.

Doğrudur, bu dövrdə uşağın istedadları bir qədər sadəlövh səciyyə daşıyır, lakin istedadların hər iki növündən istifadə edə bilir. Belə ki,bəzən ümumi müddəanı konkret hala tətbiq edib ondan müvafiq nəticə çıxarır, yaxud əksinə, ayrı-ayrı hallardan ümumi nəticəyə gəlir. 4 yaşlı uşağın üzü cızılır, ağlayır, o anasının yanına gəlib deyir ki, üzü xəstələnib, ona həb versin. Kiçik məktəbəqədər yaşdan başlayaraq uşaq ona yaxşı tanış olan cisimləri ümumiləşdirə bilir. O, bu zaman cisimlərin mühüm və ümumi əlamətlərini ayırmaq əsasında ümumiləşdirməyə qədəm qoyur. Lakin bu, həmin əlamətləri bilavasitə qavradıqda mümkün olur.

İlk ümumiləşdirmələrdən məfhumları mənimsəməyə adlamaq bir sıra mərhələlərdən keçir. Bu zaman tədriclə müxtəlif cisimləri, onların mühüm əlamətlərini ayırd etməyə başlayır; bu da onun təmasda olduğu cisim və hadisələri ümumiləşmiş şəkildə əks etdirməsinə imkan verir.

Uşaqlar məfhumlara yiyələnərkən, zahiri, bəzən də təsadüfü və daha aydın nəzərə çarpan əlamətlərə istinad etməkdən, onlarla əməliyyat aparmaqdan cisimlərin mühüm əlamətlərini aşkar etməyə, açmağa keçirlər. Bunun sayəsində uşaqlar malik olduqları bilikləri mənalı, anlaşılan tərzdə təsnif etmək, qruplaşdırmaq, onlardan istifadə etmək bacarığına yiyələnirlər.

Beləliklə, aydın olur ki, məktəbəqədər yaşlı uşağın təfəkkürü yalnız əyani-əməli təfəkkürdən konkret obrazlı təfəkkürə doğru getməklə məhdudlaşmayıb, oradan da mücərrəd təfəkkürə doğru inkişaf edir. Lakin bu dövrdə uşaq mücərrəd təfəkkürə birdən – birə yiyələnmir. Mücərrəd təfəkkür uşağın nitqə yiyələnməsindən, ayrı-ayrı sözlərin onun üçün siqnal rolunu oynamasından asılıdır. Belə olduqda, sözlər ümumiləşməyə imkan verir.

Məktəbəqədər yaşlı uşaqlarda ağlın keyfiyyətləri də təzahür edir. Onlar, yeri gəldikcə, öz fikirlərindəki ziddiyyəti dərk edir, başqa adamların, xüsusən yoldaşlarının fikirlərindəki uyğunsuzluqları açıb göstərirlər, tənqidi surətdə düşündüklərini nümayiş etdirirlər. Deməli, ağlın mühüm keyfiyyətlərindən olan müstəqillik və tənqidliyin ilkin, lakin çox sadə təzahürünə hələ məktəbəqədər yaşlı uşaqlarda təsadüf edilir. Məsələn, 4 yaşlı Nigar yıxılır, başı stula dəyir, ağlayır. Anası onu sakitləşdirmək üçün deyir: “Nigar, ağlama, ağlama, yoxsa stul sənə gülər”. Uşaq: “Yox, stul gülə bilməz, onun ağzı yoxdur”- deyə hıçqıra-hıçqıra dillənir.

Uşağın həyat təcrübəsi məhdud, təfəkkürü isə konkret olduğuna görə ona verilən hər bir sözlü izahat müəyyən konkret materiallarla müşayiət edilməlidir. Bundan başqa, uşağın həyat təcrübəsi zənginləşdirilməlidir. Ona istər ailədə, istərsə də uşaq bağçasında daim yeni biliklər verilməlidir. Onların aldıqları bilikləri həyata tətbiq etmələrinə, müvafiq bacarığına yiyələnmələrinə nail olmaq zəruridir.

Məlumdur ki, məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növü oyundur. Onların bütün psixi proseslərinin, eləcə də təfəkkürünün inkişafı oyun prosesində baş verir. Lakin hər cür oyunu bu cəhətdən faydalı hesab etmək olmaz. Uşaq təfəkkürünün inkişafı üçün elə oyun faydalı hesab edilə bilər ki, bu zaman uşağın qarşısına fikri məsələlər çıxsın, o həmin məsələləri həll etmək üzərində düşünsün, müstəqil surətdə yollar tapsın, müəyyən əqli əməliyyat nəticəsində qarşıdakı məqsədə çatsın.

Uşağı gəzintiyə apardıqda, müəyyən yerlərə ekskursiya təşkil etdikdə müxtəlif cisimləri göstərmək, bu barədə onu danışdırmaq, uşağın aydın dərk edə bilmədiyi cəhətlər haqqında sual vermək lazımdır. Belə olsa, hələ məktəbəqədər yaşda ikən uşağın həyat təcrübəsi zənginləşir, onda geniş maraq əmələ gəlir. Bunlar isə öz növbəsində, təfəkkürün inkişafına müsbət təsir göstərir.

Təfəkkürün müvəffəqiyyətlə inkişafı təlim prosesinin səmərəli təşkilindən, eləcə də müəllimlərin uşaqlarda təfəkkürün inkişaf etdirilməsi qayğısına qalmalarından çox asılıdır.

**Məqalənin aktuallığı.** Uşaqlar öz fəaliyyətlərini planlaşdırmağa, onun nəticələrini qabaqcadan görməyə hələ qabil olmurlar. Çünki həyat təcrübələri məhdud, təfəkkürləri isə konkret. Məhz bu yaşda onlarla işləmək, mövcud biliklərini zənginləşdirmək böyük əhəmiyyət daşıyır. Məqalə də məhz bu kimi vacib məsələyə həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə körpə uşaq təfəkkürünün səciyyəvi xüsusiyyətləri təhlil olunur, təfəkkürün sonrakı inkişafının şərtləri göstərilir, uşağın ilk ümumiləşdirmələrdən məfhumları mənimsəməyə adlamasının mərhələləri nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də məktəbəqədər tərbiyə müəssisələrinin əməkdaşları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ümumi psixologiya / Petrovskinin ümumi red. ilə. Bakı, 1982.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 1989.
3. Uşaq bağçasının tərbiyə və təlim proqramı. Bakı, 1985.
4. Uşaq bağçasında tərbiyə işinin nümunəvi məzmunu. Bakı: Maarif, 1978.
5. Erdiniyev B.P. Məktəbəqədər yaşlı uşaqlarda kəmiyyət və rəng haqqında biliklərin formalaşdırılmaısı metodikası // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1975, № 1.
6. Развитие мышление и интенсивное воспитание дошкольника. (под. ред. Поленова) М., 1985.

**Г.А. Эфендиева**

## Развитие и мышление

## Резюме

Мышление играет огромный роль в развитии детей. В основном развитий у них такие психические процессы как помять, внимание, сосредоточенности и самое главное влияет на его психическое развитие.

**G.A. Afandiyeva**

## Development of thinking in children

## Summary

Thinking plays a huge role in the development of children. In the main development, they have such mental processes as mashing, attention, concentration, and most importantly affect his mental development.

**Redaksiyaya daxil olub:** 21.02.2020